**Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun körpələrin və erkən yaşlı uşaqların ana südü ilə qidalanmasının təbliği və müdafiəsinin başlıca istiqamətlərini, süni qida məhsullarının istehsalı, idxalı, reklamı və satışına nəzarətin təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

I fəsil
## ÜMUMİ MÜDDƏALAR

### ***M a d d ə 1 .*** *Əsas anlayışlar*

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:
1.0.1. körpə - bir yaşınadək uşaq;
1.0.2. erkən yaşlı uşaq - bir yaşından üç yaşınadək uşaq;
1.0.3. ana süd ilə qidalanma - körpə və erkən yaşlı uşaqların döşlə əmizdirilməsi;
1.0.4. eksklüziv qidalanma - altı aya qədər körpələrin yalnız ana südü ilə qidalandırılması;
1.0.5. süd anası - başqa körpəni əmizdirən qadın;
1.0.6. süni qidalanma - ana südü olmadıqda körpələrin və erkən yaşlı uşaqların süni qida qatışıqları ilə qidalandırılması;
1.0.7. süni qida məhsulu - körpələrin və erkən yaşlı uşaqların qidaya tələbatını ödəyən və onların fizioloji xüsusiyyətlərinə uyğunlaşdırılan, ana südünü qismən əvəz edən qida qatışığı;
1.0.8. qida formulu - ~~sənaye üsulu ilə müvafiq standartlara uyğun hazırlanan,~~ altı aylığa qədər körpələrin (bir nömrəli qida formulu) və altı aylıqdan üç yaşınadək uşaqların (iki nömrəli qida formulu) qidaya tələbatını ödəmək üçün nəzərdə tutulan, ana südünü qismən əvəz edən heyvan və ya bitki mənşəli qida qatışığı;[1]
1.0.9. əlavə qida - ana südü, yaxud süni qida məhsulu və ya qida formulu altı aydan yuxarı körpələrin və ya erkən yaşlı uşaqların qidaya tələbatını tam ödəmədikdə onlara əlavə olaraq verilən sənaye üsulu ilə və ya ev şəraitində hazırlanan qida məhsulu;
1.0.10. distribütor - süni qida məhsullarının yayılmasını (satışını, reklamını, təbliğini və s.) həyata keçirən fiziki və ya hüquqi şəxs;
*1.0.11. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar - "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş texniki normativ hüquqi aktlar.*[2]

### ***M a d d ə 2 .*** *Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi*

Körpələrin və erkən yaşlı uşaqların (bundan sonra - uşaqların qidalanması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının

Konstitusiyasından, bu Qanundan, *"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan,* digər normativ-hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.[3]

***M a d d ə 3 .*** *Uşaqların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri*

3.0. Uşaqların qidalanmasının müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

3.0.1. uşaqların qidalanması ilə bağlı məqsədli dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;

3.0.2. uşaqların təhlükəsiz və adekvat qidalanmasına dövlət təminatı;

3.0.3. ana südünün üstünlüyünü təsdiq edən, döşlə əmizdirilməni müdafiə edən təbliğat işinin təşkili və uşaqların sağlam qidalanması sahəsində informasiyanın qanunvericilikdə müəyyən olunmuş qaydada yayılması;

3.0.4. süni qida məhsullarına dövlət nəzarətinin təşkili;

3.0.5. uşaqların ana südü ilə qidalanmasının müdafiəsi məqsədi ilə analara maddi, hüquqi, tibbi-sosial təminat verilməsi.

## I I f ə s i l
## UŞAQLARIN ANA SÜDÜ İLƏ QİDALANMASININ MÜDAFİƏSİ

***M a d d ə 4 .*** *Ana südü ilə qidalanmanın təbliği*

4.0. Ana südü ilə qidalanmanın təbliği məqsədi ilə mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələri tərəfindən hamilə qadınlara və analara;

4.0.1. döşlə əmizdirilmənin vacibliyi və əhəmiyyəti, onun süni qidalanma ilə müqayisədə üstünlüyü barədə;

4.0.2. ana südü ilə qidalanmanın uşaqların harmonik inkişafına müsbət təsiri barədə;

4.0.3. ana südü ilə qidalanmanın uşağın və ananın sağlamlığı üçün bioloji və emosional əsaslar yaratmış barədə;

4.0.4. ana südü ilə qidalanmanın uşağı yoluxucu xəstəliklərdən qorunması və ilkin tibbi-sanitariya yardımının mühüm amili olması barədə hökmən məlumat verilməlidir.

***M a d d ə 5 .*** *Hamilə qadınların və uşaq əmizdirən anaların, insanın immunçatışmazlığı virusu ilə yaşayan analardan doğulmuş körpələrin sosial müdafiəsi*[4]

5.1. Hamilə qadınların və uşaq əmizdirən anaların sosial müdafiəsi onlara düzgün əmək, istirahət və qidalanma rejiminin yaradılmasından, vaxtlı-vaxtında profilaktik və tibbi-sanitariya yardımı göstərilməsindən, stress yaradan amillərin aradan qaldırılmasından, ana patronajı xidmətinin həyata keçirilməsindən, təbliğat işinin aparılmasından, döşlə əmizdirmə ilə bağlı tibbi maarifləndirmədən, eləcə də digər tədbirlərdən ibarətdir.

5.2. Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə məbləği ~~və ödənilmə qaydası~~ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən əlavə aylıq müavinət verilir. *Müavinətin ödənilməsi yalnız nağdsız qaydada həyata keçirilir.* [5]

5.3. İnsanın immunçatışmazlığı virusu ilə yaşayan analardan doğulmuş körpələr qida məhsulları ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada pulsuz təmin olunurlar. [6]

### ***M a d d ə 6 .*** *Süd anası*

6.1. Ananın südü olmadıqda və ya müxtəlif səbəblərdən uşağını əmizdirə bilmədikdə valideynlərin seçimi əsasında həmin uşağın əmizdirilməsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qayda və şərtlərə uyğun olaraq süd anası təmin edir.

~~6.2. Bu Qanunun 5.2. maddəsində nəzərdə tutulan müavinət süd analarına da şamil edilir.~~ [7]

## I I I f ə s i l
## SÜNİ QİDALANMANIN TƏNZİMLƏNMƏSİ

### ***M a d d ə 7 .*** *Süni qida məhsullarına qoyulan tələblər*

*7.1. Uşaqlar üçün nəzərdə tutulan süni qida məhsullarının minimum keyfiyyəti və təhlükəsizliyinə dair tələblər, onların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, saxlanması, daşınması və satış şərtləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə, habelə Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə olan qaydalarına cavab verməlidir.* [8]

~~7.2. Süni qida məhsullarının istehsalı, qablaşdırılması, markalanması, saxlanması, daşınması və satışı müvafiq standartlara, sanitar-gigiyenik norma və qaydaların tələblərinə əməl edilməklə həyata keçirilir.~~ [9]

7.3. Azərbaycan Respublikasına idxal edilən və ya respublikada istehsal olunan süni qida məhsullarının üzərindəki informasiyalar *"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsindən irəli gələrək* aşağıdakı tələbləri ödəməlidir: [10]

7.3.1. digər dillərlə yanaşı Azərbaycan dilində olmalı;

7.3.2. ana südünün üstünlüyü qeyd olunmalı;

7.3.3. "ana südünə oxşar" və ya "ana südünün əvəzedicisi" ifadəsindən istifadə edilməməli;

7.3.4. yalnız həkim məsləhəti ilə istifadə edilə bilməsi haqqında təminatı əks etdirməli;

7.3.5. qidanın düzgün hazırlanması və saxlanması haqqında qeydlər olmalı;

7.3.6. məhsulun istifadəyə yararlılıq müddəti *və istehsal tarixi* göstərilməli; [11]

7.3.7. məhsulun istehsalçısının adı və ünvanı göstərilməli;

7.3.8. quru məhsulun hər 100 qramında, hazır məhsulun isə hər 100 millilitrində kilocoul və (və ya) kilokalori ilə ifadə olunmuş enerji dəyəri, onun tərkibində əsas inqrediyentlərin heyvan və ya bitki mənşəli olması qeyd olunmalı və onların miqdarı müvafiq olaraq azalan nisbətdə göstərilməli;

7.3.9. məhsulun kimyəvi tərkibi haqqında məlumatı əks etdirməli;

*7.3.10. məhsulun adı və növü;*

*7.3.11. məhsulun miqdarı (çəkisi).* [12]

7.4. Qida formullarının üzərində onların hazırlanması üsullarını göstərən qrafik təsvirlərdən istifadə edilə bilər.

7.5. Süni qida məhsullarının Azərbaycan Respublikasına üçüncü ölkədən idxalı qadağandır.

7.6. Bu Qanunun tələblərinə cavab verməyən süni qida məhsulunun istehsalı, satışı və Azərbaycan Respublikasına idxalı qadağandır.

*M a d d ə 8.* ***Süni qida məhsullarının istehsalı və idxalı*** [13]

*8.1. Azərbaycan Respublikasında süni qida məhsulları istehsalçılarının fəaliyyəti qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsi məqsədi ilə yoxlanılır, məhsullar ekspertizadan keçirilir və həmin subyektlər qida təhlükəsizliyi qeydiyyatına alınır.*

*8.2. Qida təhlükəsizliyi qeydiyyatına alınmamış subyektlərin istehsal etdiyi və ya qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı verilməmiş süni qida məhsullarının Azərbaycan Respublikasına idxalı qadağandır.*

*8.3. Keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında süni qida məhsulları akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.*

*M a d d ə 9.* ***Süni qida məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti*** [14]

*Süni qida məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.*

***M a d d ə 1 0 .*** *Süni qida məhsullarının reklamına qoyulan tələblər*

10.1. Qida formulları barədə məlumatlar yalnız elmi və uşaqlara qayğı məsələləri üzrə ixtisaslaşmış nəşrlərdə verilə bilər.

10.2. İstehsalçılar və distribütorlar süni qida məhsulları barədə informativ, tədris və elmi xarakterli materialları yazılı, audio, video və digər formada tibb işçilərinə təqdim edə bilərlər.

10.3. Bu Qanunun 10.1-ci və 10.2-ci maddələrində nəzərdə tutulan məlumatlar elmi mətnlərlə məhdudlaşdırılmalı, süni qidalanmanın *ana südü ilə eyni olması, onu tam əvəz edə bilməsi, körpələrin ana südü ilə qidalanması ilə müqayisədə süni qidalanmasının* üstün olması təsəvvürünü yaratmamalıdır. [15]

*~~10.4. Süni qida məhsullarının körpə şəkillərinin təsviri ilə reklamı qadağandır.~~* [16]

~~*10.5. Süni qida məhsullarının satış-sərgisini və xüsusi nümayişini reklam məqsədi ilə təşkil etmək qadağandır.*~~

*10.6. Süni qida məhsullarının reklamının hamilə qadınlar və analar arasında, tibb müəssisələrində yayımlanması qadağandır.* [17]

*10.7. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən süni qida məhsullarının istehsalçıları və ya idxalçıları qida təhlükəsizliyi qeydiyyatına alındıqda və ya qida təhlükəsizliyi qeydiyyatından keçməyən idxalçının məhsulu qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olduqda, həmin məhsulların reklamına icazə verilir. Reklamda istehsalçının qida təhlükəsizliyi qeydiyyatının və ya qida təhlükəsizliyi (sağlamlıq) sertifikatının nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir.* [18]

*10.8. Süni qida məhsullarının reklamında onlardan istifadənin yaş məhdudiyyətləri haqqında məlumat verilməli, mütəxəssislərlə məsləhətləşmənin zəruriliyi, ana südünün üstünlüyü qeyd olunmalıdır.*

*10.9. Süni qida məhsullarının reklamının açıq məkanda yerləşdirilməsi qadağandır.*

*10.10. Süni qida məhsullarının reklamının sifarişçisi reklam istehsalçısının və reklam yayıcısının tələbi ilə həmin məhsulların uyğunluq, mənşə, qida təhlükəsizliyi sertifikatlarının, subyektin qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın, istifadəsinə dair təlimatın, bu təlimatda istifadə qaydası göstərilmədiyi hallarda müvafiq məlumat olan sənədin, reklamda istinad olunduqda, tədqiqatların nəticələrini təsdiq edən sənədin surətini təqdim edir.* [19]

## IV fəsil
## TİBB FƏALİYYƏTİ SUBYEKTLƏRİNİN, İSTEHSALÇILARIN VƏ DİSTRİBÜTORLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

### **Maddə 11.** *Tibb fəaliyyəti subyektlərinin hüquq və vəzifələri*

11.1. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulmuş tibb müəssisələri süni qida məhsullarını ucuz qiymətə almaq, hədiyyə, ianə, humanitar yardım və digər formada qəbul etmək hüququna malikdir.

11.2. Mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələrinin vəzifələri aşağıdakılardır:

11.2.1. körpələrin eksklüziv qidalandırılmasını müdafiə və təbliğ etmək bu sahədəki qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və yaymaq;

11.2.2. körpənin doğulduğu andan bir gün ərzində ana ilə birgə qalmasını və ilk saat ərzində döşlə əmizdirilməsini təmin etmək;

11.2.3. uşaqların süni qida məhsullarına, yaxud onlara əlavə qida verilməsinə zərurət yarandıqda valideynlərə müvafiq məsləhətlər vermək;

11.2.4. hamilə və uşaq əmizdirən qadınların, eləcə də körpələrin adlarını və ünvanlarını süni qida məhsullarının istehsalçısı və distribütorlarına verməmək;

11.2.5. bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulan tibb müəssisələri istisna olmaqla, süni qida məhsullarının istehsalçısı və distribütorları tərəfindən nümunə, hədiyyə, ianə və digşər formada təklif olunan süni qida məhsullarını almamaq;

11.2.6. uşaqların qidalandırılması ilə bağlı maarifləndirmə işini həyata keçirmək;

11.2.7. insanın immunçatışmazlığı virusu ilə yaşayan hamilə qadınları yeni doğulmuş uşaqları ana südünün əvəzedicilər ilə qidalandırmanın zəruriliyi barədə elmi cəhətdən təsdiq olunmuş məlumatlarla təmin etmək.[20]

### *M a d d ə 1 2 . İstehsalçılara və distribütorlara şamil edilən məhdudiyyətlər*

12.0. İstehsalçılar və distribütorlara şamil edilən məhdudiyyətlər aşağıdakılardır:

12.0.1. uşaqların qidalanması ilə bağlı elmi-tədqiqat işlərini müvafiq icra hakimiyyəti orqanının müsbət rəyi olmadan maliyyələşdirmək;

12.0.2. səhiyyə sistemi işçilərinin elmi və praktik konfranslarda, sessiyalarda, tibbi təhsil təcrübəsində iştirakına, tibb assosiasiyalarının fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanının müsbət rəyi olmadan sponsorluq etmək;

12.0.3. tibb müəssisələrinə uşaqlar üçün nəzərdə tutulmuş süni qida məhsulları ilə bağlı reklam xarakterli materiallar vermək;

12.0.4. süni qida məhsullarının satışını artırman məqsədi ilə tibb işçilərini və onların ailə üzvlərini və ya digər formada həvəsləndirmək;

12.0.5. süni qida məhsulları ilə bağlı bu Qanunun 10.1-ci maddəsində göstərilən materialları hamilə qadınlar və analar arasında yaymaq.

## V f ə s i l
## YEKUN MÜDDƏALARI

### *M a d d ə 1 3 . Qanunun pozulmasına görə məsuliyyət*

Bu Qanunun pozulmasında təqsiri olan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

### *M a d d ə 1 4 . Qanunun qüvvəyə minməsi*

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 iyun 2003-cü il
№ 475-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 17 sentyabr 2004-cü il tarixli 759-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 10, maddə 781**)

2. 17 aprel 2007-ci il tarixli 317-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 561**)
3. 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 70)**
4. 29 noyabr 2016-cı il tarixli **416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 yanvar 2017-ci il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 4)**
5. 13 iyun 2016-cı il tarixli **725-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 iyul 2017-ci il, № 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1284)**
6. 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1]12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 1.0.8-ci maddədən "**sənaye üsulu ilə müvafiq standartlara uyğun hazırlanan,**" sözləri çıxarılmışdır.

[2]12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 1.0.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 1.0.11-ci maddə əlavə edilmişdir.

[3]12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 2-ci maddəyə "**bu Qanundan,**" sözlərindən sonra **"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan,**" sözləri əlavə edilmişdir.

[4]21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 70)** ilə 5-ci maddənin adında "**anaların**" sözündən sonra "**, insanın immunçatışmazlığı virusu ilə yaşayan analardan doğulmuş körpələrin**" sözləri əlavə edilmişdir.

[5]17 sentyabr 2004-cü il tarixli 759-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 10, maddə 781**) ilə 5.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~5.2. Bir yaşınadək uşaq əmizdirən analara məbləği və ödənilmə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən aylıq müavinət verilir.~~

17 aprel 2007-ci il tarixli 317-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 561**) ilə 5.2-ci maddəsindən "**və ödənilmə qaydası**" sözləri çıxarılmışdır.

13 iyun 2016-cı il tarixli **725-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 iyul 2017-ci il, № 154, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, maddə 1284)** ilə 5.2-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilmişdir.

[6] 21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 70)** ilə qanuna yeni məzmunda 5.3-cü maddə əlavə edilmişdir.

[7] 17 sentyabr 2004-cü il tarixli 759-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 10, maddə 781**) ilə 6.2-ci maddə çıxarılmışdır.

[8] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 7.1-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~7.1. Uşaqlar üçün nəzərdə tutulan süni qida məhsullarının keyfiyyəti və təhlükəsizliyi standartların, sanitar-gigiyenik norma və qaydaların, habelə Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə olan qaydalarına cavab verməlidir.~~

[9] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 7.2-ci maddə ləğv edilmişdir.

[10] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 7.3-cü maddəyə "**informasiyalar**" sözündən sonra **"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsindən irəli gələrək**" sözləri əlavə edilmişdir.

[11] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 7.3.6-cı maddəyə "**müddəti**" sözündən sonra "**və istehsal tarixi**" sözləri əlavə edilmişdir.

[12] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 7.3.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 7.3.10-7.3.11-ci maddələr əlavə edilmişdir.

[13] 12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 8-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~***M a d d ə   8 .*** *Süni qida məhsullarının sertifikatlaşdırılması*~~

~~Süni qida məhsullarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin standartlara, sanitar-gigiyenik norma və qaydaların tələblərinə uyğunluğunu müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasının ərazisində istehsal olunan süni qida məhsulları qanunvericilikdə müəyyən olunmuş qaydada sertifikatlaşdırılır.~~

[14]12 iyul 2019-cu il tarixli 1663-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 9-cu maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~***M a d d ə 9 .*** *Süni qida məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti*~~

~~Süni qida məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti qanunvericilikdə müəyyən olunmuş qaydada öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.~~

[15]29 noyabr 2016-cı il tarixli **416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 yanvar 2017-ci il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 4)** ilə 10.3-cü maddədə "**ana südünə bərabər və ya ondan**" sözləri "**ana südü ilə eyni olması, onu tam əvəz edə bilməsi, körpələrin ana südü ilə qidalanması ilə müqayisədə süni qidalanmasının**" sözləri ilə əvəz edilmişdir.

[16]29 noyabr 2016-cı il tarixli **416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 yanvar 2017-ci il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 4)** ilə 10.4-cü və 10.5-ci maddələr ləğv edilmişdir.

[17]29 noyabr 2016-cı il tarixli **416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 yanvar 2017-ci il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 4)** ilə 10.6-cı maddə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~10.6. Süni qida məhsullarının reklamında ana südünün üstünlüyü mütləq qeyd olunmalıdır.~~

[18]29 noyabr 2016-cı il tarixli **416-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 29 yanvar 2017-ci il, № 20, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №1 , maddə 4)** ilə yeni məzmunda 10.7-ci, 10.8-ci, 10.9-cu və 10.10-cu maddələr əlavə edilmişdir.

12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 10.7-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*10.7. Yalnız sertifikatlaşdırılma barədə sənədləri olduqda, süni qida məhsulları reklam edilə bilər. Bu halda reklamda sertifikatın nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir.*~~

[19]12 iyul 2019-cu il tarixli **1663-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 avqust 2019-cu il, № 177, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №8, maddə 1384)** ilə 10.10-cu maddədə "**gigiyenik və mənşə sertifikatının**" sözləri "**mənşə, qida təhlükəsizliyi sertifikatlarının, subyektin qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın,**" sözləri ilə əvəz edilmişdir.

[20]21 dekabr 2010-cu il tarixli **37-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 19 fevral 2011-ci il, № 39, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 02, maddə 70)** ilə 11.2.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və qanuna yeni məzmunda 11.2.7-ci maddə əlavə edilmişdir.